

bu artwork süni intellekt vasitəsilə hazırlanıb

10 il / code academy

# Qrafik Dizayn və Vizual Kommunikasiyalar

#GələcəkBurada www.code.edu.az







**Firuzə Əzizova**
Qrafik və Veb dizayn
tələbəsinin final layihəsi

# QRAFİK DİZAYN QLOBAL DÜNYADA

Qrafik dizayn vizual kommunikasiyaların yaradılması, tərtib olunması və təşviqi üçün istifadə olunan yaradıcı və texniki prosesləri özündə birləşdirir. Bu sahə şəkillər, rənglər, mətn və digər vizual elementlər vasitəsilə bir informasiyanın yaradacılıq tətbiq etməklə izləyiciyə düzgün şəkildə ötürülməsini təmin edir. Qrafik dizayn sahəsi posterlər, kitablar, jurnallar, broşürlər, brendinq qablaşdırma, digital və hərəkətli dizayn kimi bir çox anlayışları özündə birləşdirərək reklam və dizayn agentliklərindən böyük korporativ şirkətlərə qədər bir çox sahədə tətbiq olunur. **Qlobal statistika göstərir**

| bazar payı | frilans işləyənlər | dizaynerlərin | dizaynerlərin |
|---|---|---|---|
| **43.4** | **90%** | **50.2%** | **49.8%** |
| milyard dollardır | | qadın | kişi |

Qlobal göstəricilərə əsasən qrafik dizayner peşəsinə yiyələnənlərin yaş aralığı isə kifayət qədər genişdir. Onların **27%-i 20-30 yaş, 34%-i 30-40 yaş, 39%-i isə 40 yaşdan yuxarı** şəxslərdir.

Ümumiyyətlə, statistikalar göstərir ki, qrafik dizayn sənayesi durmadan böyüyür və sahə kreativ iqtisadiyyatda mühüm rol oynayır. Marketinq, kreativ agentliklər, həmçinin digər vizual kommunikasiyaya ehtiyac duyulan bütün istiqamətlərdə peşəkar qrafik dizaynerə tələbat var.

**Baku International Short Film Festival**

**Leyla Abdullayeva**
Qrafik və Veb dizayn tələbəsinin final layihəsi



# QRAFİK DİZAYN CODE ACADEMY-DƏ

Təhsilin
**85%-i**
**praktiki iş üzərində və qlobal təcrübələrə əsaslanaraq hazırlanmışdır.**

Code Academy-dəki Qrafik Dizayn və Vizual Kommunikasiyalar təhsili sektorun ehtiyaclarını nəzərə alaraq hazırlanmışdır və məqsəd, sadəcə, texniki mütəxəssislər hazırlamaq deyil, xüsusilə dizaynın əsaslarını tələbələrə öyrədərək sahib olduqları xəyal güclərini reallığa çevirmələrinə imkan yaratmaqdır. Təhsilin 85%-i praktiki iş üzərində və qlobal təcrübələrə əsaslanaraq hazırlanmışdır. Bu isə o deməkdir ki, Code Academy-də Qrafik Dizayn və Vizual Kommunikasiyalar təhsili alaraq məzun olan hər bir şəxs bu istiqamət üzrə yerli və xarici bazardakı tələbatları qarşılayan peşəkar dizaynerlərə çevrilmə potensialına sahibdir.

**gross əmək haqqı**
**15.600 ₼/il**
**Junior Graphic Designer**

**gross əmək haqqı**
**34.200 ₼/il**
**Senior Graphic Designer**

**gross əmək haqqı**
**78.500 ₼/il**
**Art Director**

**Qeyd olunan əmək haqqıları tam ştat və remote iş imkanları nəzərə alınaraq hesablanıb.**

Bununla yanaşı akademiyanın **Zəmanətli Təhsil Modeli** ilə hər bir tələbəyə təhsilini təkrar alma imkanı verilir. Proqramın sonunda buraxılış layihələrini başa vuran tələbələr karyeraya hazırlıq prosesini bitirməklə yanaşı, fərdi portfolio hazırlayaraq məzun olurlar.

# TƏDRİS PROQRAMI

## 1 Qrafik dizayna giriş (Vektor qrafikası)

Bu modul dizayn ilə tanışlıq və proqram təminatlarından istifadəni öyrədir. Qrafik dizaynın əsas prinsipləri, vektor qrafikasının xüsusiyyətləri, Adobe Illustrator-la kompleks və çətin vektor obyektlərin hazırlanması, naxışların yaradılması və dizaynın ilkin nəzəri prinsipləri öyrədilir.

## 2 Rəng nəzəriyyəsi

Rənglərin qanunauyğunluqları və onların istifadə qaydaları, qrafik dizaynda rəng kataloqları, onların çapda və monitorlarda istifadə qaydaları, rəng kodları, rəng palitraları və digital fırçalardan istifadə izah edilir.

## 3 Tipoqrafika və mətnlərlə iş

Vizual kommunikasiyanın ən önəmli elementlərindən biri hesab edilən simvol və mətnlərlə işləmə prinsipləri, dizaynlar hazırlanarkən mətnin önəmi və onun dizayna qatdığı dəyər öyrədilir.

## 4 Rastr qrafikası

Bu modulda Adobe Photoshop proqramına giriş, şəkillərlə iş və onlar vasitəsilə kompozisiyaların yaradılması, yaradıcı düşüncənin dizaynda tətbiq edilməsi izah edilir. Həmçinin şəkil və mətnlərlə kompozisiyaların təşkili də öyrədilir.

## 5 Manipulyasiya və foto redaktə

Şəkillər üzərində daha çətin və kompleks işlərin görülməsi, işıq və kölgənin istifadə prinsipləri izah olunur. Tədris zamanı reklamçılıq dünyasına giriş edərək hazırlanmış kompozisiyalarda düzgün marketinq baxışının yaradılması prinsipləri öyrədilir. Həmçinin süni intellektin qrafik dizaynda rolu və dizaynerə qatdığı dəyərlər, süni intellekt platformaları və onlardan istifadə tədris olunur.

## 6 Vizual kommunikasiyada üslublar və kompozisiyalar

Rənglərin qanunauyğunluqları, qrafik dizaynda rəng kataloqları, çapda və monitorlarda istifadə qaydaları, rəng kodları, rəng palitraları və digital fırçaların tətbiqi öyrədilir.

## 7 Qrafik dizaynda 3D

Adobe Illustrator və Adobe Dimension ilə 3D qrafikasına giriş edilərək dizaynda 3D modellərinin hazırlanması və istifadə qaydaları öyrədilir. Həmçinin materiallarla iş və işıqlandırmanın əsas prinsipləri, 2D və 3D qrafikasının kompozisiyada birgə istifadəsi izah edilir.

## 8 Çoxsəhifəli materialların dizaynı (Editorial dizayn)

Bu modulda çoxsəhifəli materialların (məhsul kataloqları, jurnallar, müxtəlif kontentli broşürlər) dizaynı və çapa hazırlanma məntiqləri, mətn kontenti başlıqlar, yarımbaşlıqlar, kütləvi mətnlərlə daha üst səviyyədə işləmək öyrədilir. Eyni zamanda mətnlər, şəkillər və digər obyektlərin səhifə dizaynında istifadəsi qaydaları da izah edilir.

## 9 Brendinq

Brendinq haqqında ümumi məlumatlar, şirkətlərin brendinqi, onların simasının yaradılması və ya yenilənməsi (rebrandinq), əsas mərhələlər öyrədilir. Bununla yanaşı, loqotiplər, loqobook, korporativ üslub, reklam materialları və promo materialların yaradılması prinsipləri, proyektin təqdim edilməsi prosesi izah edilir.

## 10 Qablaşdırma və etiket dizaynı

Qablaşdırma dizaynının prinsipləri, etiket və qablaşdırmalar, onların dizaynlarının hazırlanmasında diqqət ediləcək əsas məqamlar, satış nöqtələrində olan stendlərin və digər reklam materiallarının (POS) brendinqi öyrədilir.

## 11 Hərəkətli Qrafika (2D Motion)

Bu modulda Adobe After Effects ilə motion qrafikasına giriş edilir. Hərəkətli qrafikanın baza prinsipləri və hərəkətin fizikası, mətn və "shape" animasiyaları, daha sonra yaradılmış konseptin animasiya edilməsi, Adobe Premier vasitəsilə video və musiqilərlə iş öyrədilir.

# HANSI BACARIQLARA SAHİB OLACAQSAN?

- ## Təməl qrafik dizayn bilikləri

  Qrafik dizaynın anlayışları, vizual elementlər və onlardan istifadə, tipoqrafika, kommunikasiyada kompozisiya və üslublar.

- ## Marketinq və reklam

  Dizaynda marketinq yanaşması, istifadəçilərlə vizual kommunikasiyanın düzgün qurulması, dizayn prosesində satışın nəzərə alınması.

- ## Brendinq

  Loqolar və onların müxtəlifliyi, brendin vizual məntiqinin və dilinin qurulması və brend qaydalarının formalaşdırılması.

- ## Qablaşdırma və etiket dizaynı

  Müxtəlif növ məhsul qablaşdırmaları və etiketlərin dizayn edilməsi prinsipləri, satış nöqtələrində məhsul brendinqi.

- ## 3D qrafikası

  Qrafik dizaynda 3D üslubu, sadə 3D obyektlərin yaradılması və ya hazır obyektlərdən istifadə edərək müxtəlif kompozisiyaların hazırlanması.

- ## Çoxsəhifəli materialların dizaynı və çapa hazırlanması

  Jurnallar, broşürlər, kitablar və digər çoxsəhifəli materialların dizayn edilməsi prinsipləri.

- ## Baza səviyyəsində 2D motion dizayn

  Vizual kompozisiyaların hərəkətə gətirilməsi, animasiyanın baza prinsipləri.

- ## Süni intellekt platformalarından istifadə

  Süni intellekt alətlərindən istifadə edərək dizayn tapşırığının, ideyanın əldə edilməsi və hazırlanması.

BU TƏDRİS KİMLƏR ÜÇÜNDÜR?

# QRAFİK DİZAYNA MARAĞI OLAN VƏ KARYERASINI BU SAHƏDƏ QURMAQ İSTƏYƏN HƏR KƏS İŞTİRAK EDƏ BİLƏR.




**Xanım Əliyeva**

Qrafik və Veb dizayn tələbəsinin final layihəsi



# CODE ACADEMY TƏLƏBƏSİ OLMAQ

Code Academy-də tədris alan hər bir tələbə sahə üzrə bilik və bacarıqlarını inkişaf etdirməklə yanaşı, eyni zamanda bu sahənin peşəkarları ilə bir mühitdə olmaq imkanı qazanacaq, 8000 nəfərdən çox tələbəsi olan Code Academy ailəsinin bir parçasına çevrilərək, yeni dünyanın mütəxəssisləri ilə davamlı ünsiyyətdə olacaq və Open Space ərazisindən şəxsi və peşəkar inkişafı üçün istifadə edə biləcəkdir.

**+10.000**
ümumi tələbə sayı

**116**
pedaqoji heyət

**12saat / 7gün**
"Open Space"-dən istifadə



## Məzunlarımızın işlədiyi top şirkətlər

PAŞA Bank, Kapital Bank, kontakt, Azercell, Google, HAVAS, GUAVAPAY, AZINTELECOM, Bolt, asan xidmət, bakcell, amazon.com, azericard, PAŞA Holding, endorphin

# TƏLƏBƏLƏRİMİZİN UĞUR HEKAYƏLƏRİ



**Rima Əlizadə**
Qrafik Dizayner
**McCann Baku**

Məqsədiniz varsa, arxasınca getmək lazımdır. Çünki zaman keçdikdən sonra başa düşürük ki, artıq başqa bir fürsətimiz yoxdur. Həqiqətən, çalışqan birisinizsə, bu yolu getməyə dəyər.



**Ruqiyə Babayeva**
Qrafik Dizayner
**Code Academy**

Əsl uğur işə həvəslə yanaşmaq və həyatın hər anına yaradıcılıq gətirməklə mümkündür. Code Academy məqsədimə çatmağımda mənə lazımi bilik və bacarıqlar verərək, bu uğura nail olmağımda mühüm rol oynadı.



**Şamxal Bayramov**
Qrafik Dizayner
**Xəzər Media Mərkəzi**

Sevdiyin işi öyrənmək həmişə maraqlı və həyəcanverici olsa da, onu daha maraqlı edən bu yolda sənə yoldaş olan şəxslər və içində olduğun mühitdir. Bu məkan məhz Code Academy-dir.



**Turqay Qasımlı**
Lead Product Designer
**Yelo Bank**

Xoşbəxt insan sevdiyi işlə məşğul olandır.  Sevdiyin işlə məşğulsansa, uğur qaçınılmazdır.




**Məhsəti Cəlilova**
Qrafik və Veb dizayn
tələbəsinin final layihəsi



# Tədris proqramı cədvəli

| Həftəiçi: Bazar ertəsi - Cümə (5 gün) | |
|---|---|
| **Səhər:** 09:00 - 12:45 | 21 həftə |
| **Günorta:** 14:00 - 17:45 | 21 həftə |
| **Axşam:** 19:00 - 21:45 | 28 həftə |

| Həftəsonu: Şənbə, Bazar (2 gün) | |
|---|---|
| **Səhər:** 10:00 - 14:45 | 33 həftə |
| **Günorta:** 15:30 - 20:15 | 33 həftə |

* Tədris proqramı lab saatları daxil ümumilikdə 330 saat davam edir.

Növbəti tədris hədəfin: **UX/UI Dizayn, 2D Motion Dizayn**




**Ziya Rəhimov**
Qrafik və Veb dizayn tələbəsinin final layihəsi



Nizami küç. 203B, AF Business House, 2-ci mərtəbə
+99412 310 0113 / +99450 444 2633
info@code.edu.az / www.code.edu.az